# 12. VƏTƏNDAŞ CƏMİYYƏTİ

## Xülasə

Müstəqilliyin bərpasından sonrakı mərhələdə bir sıra demokratik təsisatlar kimi qeyri-hökumət təşkilatlarının da formalaşması prosesi başlayıb.

Ölkədə 3000-ə qədər qeydiyyatdan keçmiş QHT və xeyli sayda qeydiyyatsız qrup mövcuddur. Ölkədə mövcud QHT-lərin sayını nəzərə alsaq, orta hesabla hər 3000 vətəndaşa təxminən bir QHT düşdüyünü qeyd etmək olar[1]. Kəmiyyət prizmasından qiymətləndirsək Azərbaycan kimi müstəqillik yoluna yeni qədəm qoymuş ölkələr üçün bu pis göstərici deyil.

Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq üçün Azərbaycan hökuməti son illərdə bir sıra ciddi addımlar atıb. Yerli və xarici QHT-lərə qrantların ayrılması və informasiya dəstəyinin verilməsi məqsədilə Azərbaycan hökuməti 2007-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurasını təsis edib və Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına Dövlət dəstəyi Konsepsiyası təsdiq edilib. Dövlət orqanları nəzdində yaradılmış ictimai nəzarət şuralarını, QHT və hökumət təmsilçilərindən formalaşan şəbəkələri və işçi qruplarını da hökumətin vətəndaş cəmiyyəti ilə əməkdaşlığına nümunə göstərmək olar.

Digər tərəfdən, 2013 və 2014-cü illər ərzində Milli Məclis QHT-lərin hökumət qarşısında hesabatlılığını artıran bir sıra qanunvericilik dəyişiklikləri qəbul edib. Qrant vəsaitlərinin xərclənməsi üzərində bankların nəzarəti də artırılıb. Bu dəyişikliklər QHT-lərin fəaliyyətində hesabatlılığın və şəffaflığın artırılmasına xidmət etsə də, yeni öhdəliklərin icrası adminstativ problemlər yaradır ki, bu problemləri də həll etmək üçün bütün tərəflərin iştirakı ilə cəhdlər göstərilir.

Vətəndaş cəmiyyəti idarəetmə, menecment və maliyyə vəsaitlərinin cəlb edilməsi sahələrində ixtisaslaşmış kadrlara, institusional potensialının artırılmasına, həmçinin şəffaflığın və hesabatlılığın inkişaf etdirilməsinə ehtiyac duyur. Maliyyələşmənin davamlı olmaması QHT-lərin ictimai həyatda fəal iştirakına ciddi maneələr yaradır və ölkənin ictimai-siyasi gündəliyinə təsir imkanlarını azaldır.

Vətəndaşları ictimai məsələlər barəsində məlumatlandırmaq, ortaq problemlərin həlli üçün insanların təşkilatlanma, resursları səfərbər etmə və birgə işləmə potensialını inkişaf etdirmək, hüquqi yardım göstərmək istiqamətində vətəndaş cəmiyyəti daha uğurlu fəaliyyət göstərə bilir. Vətəndaş cəmiyyəti büdcənin formalaşdırılması və büdcə xərcləri üzərində nəzarət imkanları, hökumətin hesabatlılığına nail olunması və hökumətin siyasətinin formalaşmasında iştirakını artırmalıdır.

Azərbaycanda vətəndaş cəmiyyəti hələ tam yetkin deyil, o, institusional potensialının artırılması və konsolidasiya kimi ağrılı proseslərdən keçir. Eyni zamanda, vətəndaş cəmiyyəti öz siyasi təmayülü və hökumətlə əməkdaşlıq dərəcəsi baxımından qütbləşib.

---

[1] Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası. Azərbaycan Respublikasında QHT-lərin vəziyyəti haqqında Milli Hesabat. Bakı 2010. www.cssn.gov.az

## VƏTƏNDAŞ CƏMİYYƏTİ

**Ümumi qiymət: 46/100**

| MEYAR | İNDİKATOR | QANUN | TƏCRÜBƏ |
|---|---|---|---|
| Fəaliyyət qabiliyyəti 50/100 | Resurslar | 50 | 50 |
| | Müstəqillik | 50 | 50 |
| İdarəçilik 50/100 | Şəffaflıq | - | 50 |
| | Hesabatlılıq | - | 50 |
| | Dürüstlük | - | 50 |
| Şəffaflıq sistemində rol 38/100 | Hökuməti hesabatlı tutmaq | 25 | |
| | Siyasət islahatları | 50 | |

### Struktur və təşkilatlanma

Azərbaycan qanunvericiliyi universal olaraq qeyri-hökumət təşkilatları kimi tanınan qurumlara ya ictimai birlik[2], ya da fond[3] anlayışlarını şamil edir. Qanuna əsasən ictimai birlik ümumi məqsədlər əsasında birləşmiş bir neçə fiziki və ya hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış qeyri-kommersiya qurumudur, fond isə bir və ya bir neçə fiziki və ya hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilə və sosial və ya digər ictimai-faydalı məqsədlər daşıya bilər.

Beynəlxalq təcrübədə tez-tez rast gəlinən, bir neçə təşkilatın ümumi məqsədlər ətrafında birləşərək yaratdığı forum, platforma və ya koalisiya kimi geniş anlayışlar Azərbaycan qanunvericiliyində mövcud deyil. Lakin qanunvericilikdə "ittifaq" kimi təşkilati-hüquqi forma nəzərdə tutulmuşdur ki, bu da bir neçə hüquqi şəxslərin birləşməsini mümkün edir. QHT birlikləri öz hədəflərinə çatmaq, maliyyə əldə etmək məqsədilə ictimai birlik formasında qeydiyyatdan keçməyə cəhd edirlər, çünki bu həm qanunun tələbidir, həm də donorlar tərəfindən maliyyələşmək üçün bir qayda olaraq QHT-lərin hüquqi qeydiyyatı ilkin şərtdir[4]. QHT-lər aldıqları qrant vəsaitlərini də rəsmi olaraq qeydiyyatdan keçirməlidirlər.

Azərbaycanda vətəndaş cəmiyyəti xeyli fəaldır. Ölkədə 3000-ə qədər qeydiyyatdan keçmiş QHT[5] və xeyli sayda qeydiyyatsız qrup mövcuddur[6].

---

[2] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə 2.1, 13 iyun 2000, www.cssn.gov.az

[3] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə 2.2, 13 iyun 2000, www.cssn.gov.az

[4] Emin Amrullayev, The Report on the Assessment of the Organizational and Management Capacity of NGOs in Azerbaijan by Democracy Learning Public Association, February 2012 http://dlpu.az/senedler/Azerbaijan.pdf

[5] Ədliyyə Nazirliyinin rəsmi internet səhifəsi www.justice.gov.az

Yerli və xarici QHT-lərə qrantların ayrılması və informasiya dəstəyinin verilməsi məqsədilə Azərbaycan hökuməti 2007-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurasını təsis edib[7].

## Qiymətləndirmə

## Resurslar (qanunda): 50

*Qanunvericilik vətəndaş cəmiyyəti üçün əlverişli mühiti nə dərəcədə təmin edir?*

Azərbaycanda vətəndaş cəmiyyətinin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsinə ciddi ehtiyac var. QHT-lərə Dövlət Dəstəyi Şurası və QHT-lər mütəmadi olaraq qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərlə çıxış edirlər. Məsələn, Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Azərbaycanda 17 may 2012 tarixində təşkil olunmuş 1-ci Vətəndaş Cəmiyyəti Forumu[8] digər tövsiyələrlə yanaşı, həm də qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər paketini hökumətə təqdim edib.

Birləşmək hüququ Azərbaycanda Konstitusiyanın 58-ci maddəsi[9] və Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsi[10] ilə təmin olunub. QHT-lərin fəaliyyətinin hüquqi çərçivəsi Azərbaycan Respublikasının Konstitusiyası, Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında[11], Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında[12], Qrant haqqında[13], Könüllü fəaliyyət haqqında[14] qanunlar, Qrant alınması (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydaları[15] və sair normativ aktlarla müəyyən edilir.

QHT-lərin fəaliyyət göstərməsi üçün qeydiyyatdan keçməsini Azərbaycan qanunvericiliyində açıq tələb edən müddəa əvvəllər mövcud deyildi, lakin 15 fevral 2013 tarixində Milli Məclis Qrant haqqında[16] və QHT-lər haqqında[17] qanunlara bir sıra dəyişikliklər edərək QHT-lərin fəaliyyət göstərməsi üçün qeydiyyatdan keçməsi şərtini açıq şəkildə təsbit etdi. 15 fevral 2013-cü il tarixində İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə[18] görə isə 200 manatdan artıq vəsaitlər üçün donorla qrant müqaviləsi imzalanmalıdır; qrant müqaviləsi olmadan maliyyə vəsaiti və ya başqa maddi formada yardımın qəbul edilməsinə görə inzibati xətanın bilavasitə obyekti olmuş vəsait və əşyalar müsadirə olunmaqla vəzifəli şəxslər 2,500 manatdan 5,000 manatadək, hüquqi şəxslər isə 8,000 manatdan 15,000 manatadək miqdarda cərimə ediləcək.

---

[6] NGO Law Monitor: Azerbaijan, International Center for Non-profit Law, last updated 7 February 2014 http://www.icnl.org/research/monitor/azerbaijan.html

[7] Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının vebsaytı, http://www.cssn.gov.az/

[8] "Azərbaycanda vətəndaş çəmiyyəti: dəyişikliklər üçün Milli Gündəlik" mövzusunda 1-ci Vətəndaş Cəmiyyəti Forumu, www.eap-csf.eu/en/national-platforms/azerbaijan/

[9] Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995 (qüvvəyə minmə tarixi: 27 noyabr 1995), http://www.constcourt.gov.az/laws/26

[10] Avropa İnsan Hüquqları Konvensiyası, Maddə 11, 2001-ci ildə Azərbaycan tərəfindən ratifikasiya olunub, http://www.echr.coe.int/Documents/Convention_AZE.pdf

[11] Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003, www.justice.gov.az

[12] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu, 13 iyun 2000, www.cssn.gov.az

[13] Qrant haqqında Azərbaycan Respublikasının Qanunu, 31 avqust 2009, www.cssn.gov.az

[14] Könüllü fəaliyyət haqqında Azərbaycan Respublikasının Qanunu, 31 avqust 2009, www.cssn.gov.az

[15] Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2004-cü il tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qrant alınması (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydaları (21 dekabr 2009-cu ilin dəyişiklikləri ilə), www.president.az

[16] Qrant haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 15 fevral 2013, http://www.meclis.gov.az/?/az/legislation/view/2265

[17] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 15 fevral 2013, http://www.meclis.gov.az/?/az/legislation/view/2266

[18] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 15 fevral 2013, http://www.meclis.gov.az/?/az/legislation/view/2267

17 Dekabr 2013-cü il tarixində QHT-lərin fəaliyyəti bağlı növbəti qanun dəyişiklikləri qəbul edilib.[19] [20] [21]. Bu dəyişikliklərdən biri – İnzibati Xətalar Məcəlləsinin 223-1.4-cü maddəsinin yeni redaksiyası Ədliyyə Nazirliyində qeydiyyata alınmamış qrant müqavilələri üzrə bank və digər əməliyyatların aparılmasına görə vəzifəli şəxslər üçün 2,500 manatdan 5,000 manatadək, hüquqi şəxslər isə 5,000 manatdan 8,000 manatadək miqdarda cərimə nəzərdə tutur.

17 Dekabr 2013-cü il dəyişikliklərindən, sonra 17 Mart 2013-cü il tarixində Mərkəzi Bankın İdarə heyətinin qərarı qəbul olunub.[22] Banklara tapşırılıb ki, qrant verilməsi və ya alınması ilə bağlı nağdsız hesablaşma və pul köçürmələri əməliyyatları yalnız qrant verilməsi və ya alınması haqqında hər bir müqavilənin qeydə alınmasını təsdiq edən sənəd təqdim olunduqda aparılsın. Bu da bankların qeydə alınmamış qrant müqavilələri üzrə əməliyyatların keçirilməsinə görə cərimələnməsindən ehtiyatlanması ilə bağlı olmuşdur. Son dəyişikliklərdən sonra qrantı Ədliyyə Nazirliyindən qeydiyyatdan keçirdikdən sonra qurumdan alınan bildirişi müvafiq banka tədim etmək və bunun əsasında maliyyə əməliyyatının aparılmasına nail olmaq olar. Bu sahədə əsas problem ondan ibarətdir ki, Mərkəzi Bankın qərarında açıq şəkildə sənədin təqdim edilməli olduğu bildirilsə də, qanunda[23] vəya Prezidentin fərmanında[24] belə bir öhdəlik göstərilmir. Ədliyyə Nazirliyi tərəfindən qrantların səmərəli onlayn reyestri aparılır və bu məlumatlar ictimaiyyətə açıqdır.[25] Banklar isə Mərkəzi Bankın qərarını əsas gətirərək məlumatları sənəd formasında tələb edirlər, hətta bəzi hallarda artıq qeydiyyatdan keçmiş qrantlara da rəsmi bildiriş tələb edərək yeni tənzimləmələrin qüvvəsini geriyə tətbiq edirlər. Həmçinin bəzi banklar qeydiyyata alınmış qrant müqaviləsi ilə nəzərdə tutulan vəsaitlər hər dəfə hesaba köçürülən zaman, yəni hər tranş zamanı yenə bildirişlər tələb edirlər. Bəzən bu tənzimləmələr Azərbaycan hökuməti tərəfindən verilən qrantlara da şamil edilir, halbuki qanuna əsasən bu qrantları donor təşkilatlar özləri qeydiyyatdan keçirməlidir[26]. Yeni dəyişikliklər QHT-ləri öz fəaliyyətlərini və xərclərini daha şəffaf və hesabatlı göstərməyə sövq etsə də, digər tərəfdən qanunun təcrübədə tətbiqi onların fəaliyyətlərində ləngimələrə səbəb olur. QHT-lərə Dövlət Dəstəyi Şurası bəzi vətəndaş cəmiyyəti təşkilatları ilə birlikdə bu problemlərin həllinə nail olmaq üçün işçi qrupu təşkil edib[27] [28].

Müvafiq qanunvericiliyə əsasən qeydiyyat qaydalarına görə qrant müqaviləsinin notariusda təsdiq edilmiş nüsxəsi Ədliyyə Nazirliyinə təqdim edilməlidir.[29] Ümimiyyətlə isə qrantların notariuslar tərəfindən qeydiyyatı prosesində təkmilləşdirməyə ehtiyac var. Ədliyyə Nazirliyi isə bürokratik prosedurların əngəl olmaması üçün "Fərdi elektron pəncərə" elektron məlumat sistemi yaratmışdır. Bəzi hallarda notariuslar qrant müqavilələrinin müəyyən edilmiş tələblərə cavab vermədiyini əsas gətirərək onları təsdiq etməkdən ehtiyatlanırlar. Qanunvericilikdə donorla, qrant alan arasında imzalanan qrant müqavilələrinin dəqiq formatı haqqında aydın

---

[19] "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 17 dekabr 2013, http://www.meclis.gov.az/?/az/legislation/view/2554
[20] "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə, 17 dekabr 2013, http://www.meclis.gov.az/?/az/legislation/view/2549
[21] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə, 17 dekabr 2013, http://www.meclis.gov.az/?/az/legislation/view/2545
[22] Nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimatda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı. 17 Mart 2014-cü il www.taxes.gov.az
[23] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu, 13 iyun 2000, www.cssn.gov.az
[24] Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2004-cü il tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qrant alınması (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydaları (21 dekabr 2009-cu ilin dəyişiklikləri ilə), www.president.az
[25] Ədliyyə Nazirliyinin İnternet saytı, http://www.justice.gov.az/notariat.php?page=3001
[26] Vətəndaşların Əmək Hüquqları Müdafiə Liqasından Sahib Məmmədovun hesabatın müəllifinə müsahibəsi, 11 aprel 2014.
[27] Vətəndaşların Əmək Hüquqları Müdafiə Liqasından Sahib Məmmədovun hesabatın müəllifinə müsahibəsi, 11 aprel 2014.
[28] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin hesabatın müəllifinə müsahibəsi, 11 aprel 2014.
[29] Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2004-cü il tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qrant alınması (verilməsinə) dair müqavilələrin (qərarların) qeydiyyata alınması Qaydaları (21 dekabr 2009-cu ilin dəyişiklikləri ilə), www.president.az

qaydalar mövcud deyil. Qanunda qeyd olunur ki, müqavilədə (qərarda) qrantın məqsədi, məbləği, predmeti və əgər donor tərəfindən resipiyent qarşısında hansısa şərtlər qoyulmuşdursa, həmin şərtlər göstərilməlidir.[30] Bundan savayı hər donorun ayrı qrant müqaviləsi forması mövcuddur. Digər bir çətinlik Azərbaycandan kənarda yerləşən donorlarla imzalanan qrant müqavilələrinin təsdiqi ilə bağlıdır. Belə ki, texniki cəhətdən bir çox hallarda qrant müqavilələrinin orijinal nüsxələrini əldə etmək çətin olduğundan onu skanlanmış versiya əvəz edir. Dəyişikliklərdən sonra yaranan bürokratik problemlərin aradan qaldırılması üçün Ədliyyə Nazirliyi QHT-lər üçün vahid elektron pəncərə sistemini tətbiq etməyə başlayıb.[31].

Korrupsiyaya qarşı islahatları təşviq edəcək potensial və koalisiya imkanlarını müəyyən etmək məqsədilə Şəffaflıq Azərbaycan təşkilatının vətəndaş cəmiyyəti (QHT rəhbərləri və üzvləri) arasında apardığı son sorğudan belə məlum olur ki, vətəndaş cəmiyyəti vergi sistemini orta qiymətləndirir. Qanuna əsasən əmək haqlarına görə 22% həcmində məcburi dövlət sosial sığorta haqqı istisna olmaqla QHT-lər hüquqi şəxs kimi qrantlardan heç bir vergi ödəmirlər[32]. Texniki olaraq QHT-lər ƏDV-dən azad deyil, ancaq 0% həcmində ƏDV ödəyirlər ki, bu da vergi orqanlarına əlavə hesabatların verilməsini tələb edir. İşçilər həmçinin gəlir vergisi verir[33] və sosial müdafiə ödənişləri edir[34]. Lakin bir çox qrant müqaviləsi qısa müddəti əhatə etdiyindən (orta hesabla altı aydan bir ilə kimi), QHT-lər öz əməkdaşlarını əmək müqaviləsi yox, müvəqqəti xidmət müqaviləsi əsasında işə götürürlər və işçilər sadələşdirilmiş sistemlə vergi ödəyirlər[35]. Xidmət göstərən şəxslər vergi orqanlarında qeydiyyatdan keçir və fərdi VÖEN-ə sahib olur, öz vergi[36] və sosial müdafiə ödənişlərinə[37] görə özləri məsuliyyət daşıyırlar.

2011-ci ildə QHT-lərə Dövlət Dəstəyi Şurası vətəndaş cəmiyyətinin fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə bir sıra qanun layihələri hazırlayıb və müzakirəsini keçirib. Onlardan İctimai iştirakçılıq haqqında qanun bu yaxınlarda qəbul edilib[38]. Peşə birlikləri haqqında qanunun qəbulu isə bu hesabatın hazırlandığı müddət ərzində hələ gözlənilirdi. “Sosial sifarişlər haqqında” qanun layihəsi də parlamentin gündəliyinə daxil edilib.

## Resurslar (təcrübədə): 50

*Səmərəli şəkildə fəaliyyət göstərmək üçün vətəndaş cəmiyyəti təşkilatları müvafiq maliyyə və insan resurslarına təcrübədə nə dərəcədə sahibdirlər?*

Şəffaflıq Azərbaycan təşkilatının keçirdiyi sorğuya[39] əsasən QHT-lər islahatların təşviqi yönündə fəaliyyət göstərmək üçün nisbətən azaddır (sorğuda iştirak edə QHT təmsilçilərinin 60%-i belə düşünür, 22% isə tam azad olduqlarını hesab edir). Ümumilikdə, hökumət konstruktiv tənqidlə məşğul olan QHT-lərlə

---

[30] Qrant haqqında Azərbaycan Respublikasının Qanunu, 31 avqust 2009, www.cssn.gov.az
[31] Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 Noyabr 2013-cü il, www.president.az
[32] Əmək haqlarına görə 22% həcmində məcburi dövlət sosial sığorta haqqı Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanununda təsbit edilib, www.e-qanun.az; lakin ABŞ və Azərbaycan hökumətləri arasında bağlanmış xüsusi müqaviləyə əsasən USAID kimi ABŞ hökumət agentlikləri tərəfindən verilən qrantlar bu 22%-lik sığorta haqqından azaddır.
[33] Vergi Məcəlləsinə əsasən gəlir vergisinin dərəcəsi 2,500 manata qədər gəlirdə 14%, gəlir 2500 manatdan çox olduqda isə 350 manat və 2500 manatdan çox olan məbləğin 25 faizi həcmində təşkil edir, www.e-qanun.az
[34] 3% həcmində sosial müdafiə ödənişi Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanununda təsbit edilib, www.e-qanun.az
[35] Vergi Məcəlləsinin XVII fəsli, 11 iyul 2000, www.e-qanun.az
[36] Vergi Məcəlləsinin 220.1-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş verginin dərəcəsi Bakıda 4%, digər şəhər və rayonlarda isə 2%-dir, www.e-qanun.az
[37] Sosial sığorta haqqında qanunun 14-cü maddəsinə uyğun olaraq məcburi dövlət sosial sığorta haqqını Bakıda ticarət və tikinti sahələri istisna, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər minimum aylıq əmək haqqının 20 faizi məbləğində ödəyir. Digər rayon və şəhərlərdə bu dərəcə Bakıdakı dərəcənin 50-90% arasında dəyişir. Minimum aylıq əmək haqqı isə Prezidentin 31 avqust 2013 tarixli sərəncamı ilə 105 manat məbləğində müəyyən edilib, www.e-qanun.az, www.president.az
[38] İctimai iştirakçılıq haqqında Azərbaycan Respublikasının Qanunu, 22 noyabr 2013 tarixində qəbul edilib və 1 iyun 2014 tarixində qüvvəyə minəcək, http://www.president.az/articles/10814
[39] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, “Şəffaflıq Azərbaycan” təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf

könüllü əməkdaşlıq edir, lakin müxalif yönümlü hesab etdiyi vətəndaş cəmiyyəti qrupları ilə əməkdaşlığa bir qədər ehtiyatla yanaşır.

Dayanıqlı maliyyə axınlarının olmaması Azərbaycan vətəndaş cəmiyyəti təşkilatlarının qarşılaşdığı əsas çətinliklərdən biridir. Azərbaycanda xeyriyyəçilik fəaliyyəti geniş yayılmayıb və buna görə də əksər QHT-lər yalnız qrant vəsaitləri hesabına fəaliyyət göstərir[40].

Bir sıra mənbələrin məlumatına əsasən[41],[42],[43], yerli təşkilatların yaxın zamanlara qədər aldığı qrant vəsaitlərinin əksər hissəsi xarici donorlardan – qeyri-kommersiya qurumlarından və xarici hökumətlərin yardım agentliklərindən qaynaqlanırdı. Azərbaycan hökumətinin maliyyə yardımı, o cümlədən 2007-ci ildə təsis edilmiş[44] QHT-lərə Dövlət Dəstəyi Şurası[45] vasitəsilə ayrılan vəsaitlər QHT-lərə maliyyə yardımının dörddə birindən az hissəsini təşkil edirdi. İqtisadi və Sosial İnkişaf Mərkəzinin hesablamalarına əsasən 2012-ci ildə, qeydiyyatdan keçmiş QHT-lər xarici və yerli donor təşkilatlarından 1,054 qrant vasitəsilə 39,5 milyon manat həcmində maliyyə yardımı əldə edib. Bu donor təşkilatlarının 18-i yerli təşkilatlardır və onların da 10-u dövlət orqanlarıdır[46]. 2012-ci ildə Azərbaycan hökuməti QHT-lərə ümumilikdə 10 milyon manat həcmində vəsait ayırıb[47], QHT-lərin maliyyəsinin dörddə üç hissəsi isə xarici donor təşkilatlarından gəlib.

Bu vəziyyət 2013-cü ildən etibarən kəskin dəyişib. Yerli donorlar əvvəlki illərlə müqayisədə daha artıq rol oynamağa başlayıblar. Ədliyyə Nazirliyinin təqdim etdiyi məlumatların[48] sadə təhlili göstərir ki, 2013-cü ildə 67,217,000 manat həcmində 1,817 qrant nazirlik tərəfindən qeydiyyata alınıb. Bu maliyyə vəsaitinin cəmi 35%-i və ya 23,551,000 manatı xarici donor təşkilatlar tərəfindən ayrılıb.

Özəl sektordan maliyyə ayrılması, üzvlük haqları və vətəndaşların ianələri son zamanlara qədər QHT-lərin əsas gəlir mənbələrindən deyildi[49]. Lakin bu istiqamətdə də vəziyyət sürətlə dəyişməkdədir. Yeni tələblərə müvafiq olaraq qeydiyyatdan keçən qrantlar barəsində Ədliyyə Nazirliyinin təqdim etdiyi rəqəmlərdən[50] aydın görünür ki, 2013-cü ildə QHT-lərə maliyyə ayıran 29 yerli donor təşkilatının 17-si biznes qurumudur və onlar yeni yaranan korporativ sosial məsuliyyət proqramlarına əsasən vətəndaş cəmiyyətinin fəaliyyətlərinə yardım göstərirlər. Hər üç, ya dörd QHT-dən biri yeni maliyyə qaynaqlarının cəlb edilməsi (fandreyzinq) üzrə məsul işçi saxlayır, digər hallarda bu məsuliyyət təşkilatın rəhbərinin üzərinə düşür.

Bir qayda olaraq ixtisaslı insan resurslarının çatışmazlığı QHT-lərin qarşılaşdığı ciddi problemlərdən biridir[51], [52], xüsusən də ingilisdilli əməkdaşların azlığı QHT-lərin xarici donor maliyyəsinə çıxışını əngəlləyir[53]. Bu vəziyyətin aradan qaldırılması məqsədilə QHT-lərə Dövlət Dəstəyi Şurasının Təhsil və Təlim Mərkəzi universitetlərdə vətəndaş cəmiyyətinə kadr hazırlayacaq xüsusi proqramların yaradılması

---

[40] CSO Sustainability Index, 2012: Azerbaijan, http://www.usaid.gov/sites/default/files/documents/1863/AZE.pdf
[41] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[42] Emin Amrullayev, Report on the Assessment of the Organizational and Management Capacity of NGOs in Azerbaijan, Democracy Learning Public Association, February 2012, http://dlpu.az/senedler/Azerbaijan.pdf
[43] Civil Society Briefs, Azerbaijan, publication by Asian Development Bank, December 2011, www.adb.org
[44] QHT-lərə Dövlət Dəstəyi Şurasının İnternet saytı, www.sccn.gov.az
[45] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[46] The 2012 CSO Sustainability Index For Central And Eastern Europe and Eurasia, http://cesd.az/new/wp-content/uploads/2013/08/Azerbaijan_Report_2012_in_English.pdf
[47] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin hesabatın müəllifinə müsahibəsi, 28 noyabr 2013
[48] 2013-cü il üçün qeydiyyatdan keçmiş qrant müqavilələrinin məcmu məlumatı, Ədliyyə Nazirliyi, http://www.justice.gov.az/notariat.php?page=2015
[49] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin hesabatın müəllifinə müsahibəsi, 28 noyabr 2014
[50] 2013-cü il üçün qeydiyyatdan keçmiş qrant müqavilələrinin məcmu məlumatı, Ədliyyə Nazirliyi, http://www.justice.gov.az/notariat.php?page=2015
[51] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[52] Civil Society Briefs, Azerbaijan, publication by Asian Development Bank, December 2011, www.adb.org
[53] Katrin Böttger, Mariella Falkenhain, The EU's policy towards Azerbaijan: what role for civil society?, SPES Policy Papers, June 2011, http://www.easternpartnership.org/publication/politics/2011-07-25/eu-s-policy-towards-azerbaijan-and-role-civil-society

təkliflərini hökumətə təqdim edib və bu istiqamətdə hazırlıq işləri görülür[54]. Bir çox QHT-lər öz fəaliyyətlərinə könüllüləri, adətən universitet tələbələrini cəlb edirlər[55]. QHT-lərdə könüllülərin sayı əməkdaşların sayından iki dəfə çoxdur[56].

Maliyyə problemləri səbəbindən QHT-lərin ancaq layihə müddətinə işçi götürməyə məcbur olması və nəticədə vətəndaş cəmiyyətində məşğulluğun dayanıqsızlığı QHT-lərin iş yeri kimi cəlbediciliyinə mənfi təsir göstərir. İnkişaf edən biznes sektorunda[57] QHT-lərlə müqayisədə maaşlar daha yüksək və iş yerləri daha stabildir[58]. QHT-lərin ancaq kiçik bir hissəsinin öz ofisi var[59] və bu faktor da vətəndaş cəmiyyəti təşkilatlarının dayanıqsızlığına öz təsirini göstərir. Vətəndaş cəmiyyəti təşkilatlarının öz xidmətləri qarşılığında gəlir əldə etmək imkanları qanunvericilikdəki boşluqlarla məhdudlaşdırılıb. Qanun QHT-lərin gəlir əldə etməsini qadağan etməsə də, biznes sektorunda olduğu kimi qeyri-kommersiya qurumları üçün də heç bir vergi güzəşti nəzərdə tutmur[60]. Azərbaycanda QHT-lərin təxminən yarısı üçün əhəmiyyətli problemlərdən biri də donor təşkilatların tətbiq etdiyi, qrantların kiçik həcmi və ya icazə verilməyən büdcə xərcləri kimi məhdudiyyətlərlə bağlıdır[61]. İrihəcmli xarici qrant müsabiqələrində bir qayda olaraq yerli təşkilatlar deyil, Azərbaycanda fəaliyyət göstərən xarici QHT-lər qalib gəlir, çünki yerli QHT-lərin irihəcmli qrantları idarə etmə potensialı aşağıdır, xərclərin paylaşılması şərti tətbiq ediləndə isə yerli QHT-lər digər mənbələrdən maliyyə cəlb edə bilmirlər.

Bu vəziyyəti aradan qaldırmaq məqsədilə QHT-lərə Dövlət Dəstəyi Şurası 2013-2018-ci illəri əhatə edəcək "QHT-lərin inkişafı üzrə Milli Fəaliyyət Proqramı" hazırlayıb və hökumətə təqdim edib[62]. Lakin bu günə kimi proqramın qəbulu vəya ictimaiyyətə təqdim olunması ilə bağlı məlumat yoxdur.

Bütün bunlara baxmayaq, Azərbaycan QHT-ləri son 20 il ərzində vətəndaş cəmiyyəti anlayışının özünün yeni yarandığı bir zamandan bu yana uzun inkişaf yolu keçib[63].

## Müstəqillik (qanunda): 50

*Vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətlərinə əsassız kənar müdaxilələrin qarşısını almaq üçün hüquqi təminatlar nə dərəcədə mövcuddur?*

Qanunla QHT-lərin öz fəaliyyət istiqamətləri çərçivəsində fəaliyyətinə müstəqillik verilir. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan məqsədlərə zidd olmayan, ölkə daxilində və xaricdə hər hansı fəaliyyət növünü həyata keçirə bilər. Qanunda qeyd olunur ki, Qeyri-hökumət təşkilatının hüquqları bütün dövlət orqanları tərəfindən qorunur. Qanunda eyni zamanda göstərilir ki, dövlət orqanları qeyri-hökumət təşkilatlarına maliyyə və başqa formalarda yardım edə bilərlər.

Son dəyişikliklərə görə Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı

---

[54] QHT-lərə Dövlət Dəstəyi Şurasının "Şəffaflıq Azərbaycan" təşkilatına göndərdiyi 172 nömrəli, 17 iyul 2013 tarixli məktub
[55] Civil Society Briefs, Azerbaijan, publication by Asian Development Bank, December 2011, www.adb.org
[56] Christine Leiser, Mapping of Civil Society organization in Azerbaijan, The European Union's EIDHR Programme, October 2010, www.oneglobalexpert.com
[57] Civil Society Briefs, Azerbaijan, publication by Asian Development Bank, December 2011, www.adb.org
[58] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin bu hesabatın müəllifinə müsahibəsi, 28 noyabr 2013
[59] CSO Sustainability Index 2012: Azerbaijan http://www.usaid.gov/sites/default/files/documents/1863/AZE.pdf
[60] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin hesabatın müəllifinə müsahibəsi, 28 noyabr 2013
[61] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[62] QHT-lərə Dövlət Dəstəyi Şurasının "Şəffaflıq Azərbaycan" təşkilatına göndərdiyi 172 nömrəli, 17 iyul 2013 tarixli məktub.
[63] Millət Vəkili Və Siyasi Şərhçi Rasim Musabəyovun Azərbaycanda 1-Ci Vətəndaş Cəmiyyəti Forumunda Çixişi, 18 May 2012, Www.Erc.Az

tərəfindən müəyyən edilir. Qanunun bu bəndində qeyd olunan qaydalar hazırlanır və bu prosesə vətəndaş cəmiyyətinin də cəlb olunacağı bildirilir.[64] .

Bununla yanaşı qeyri hökumət təşkilatlarının fəaliyyətini dayandırmaq üçün imkanlar artırılıb. Belə ki, son dəyişikliklərdən sonra bir il ərzində ikidən çox yazılı surətdə xəbərdarlıq və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verilərsə QHT müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər.

Bununla yanaşı qanunvercilikdə dövlətin QHT-lərin işinə bir-başa müdaxiləsi ilə bağlı qayda mövcud deyil. Belə ki, qanunda dövlət nümayəndələrinin QHT-lərin idarə heyətlərində təmsil olunmaları və iclaslarında iştirak etmələri ilə bağlı ayrıca öhdəlik nəzərdə tutulmayıb.

## Müstəqillik (təcrübədə): 50

*Vətəndaş cəmiyyəti əsassız kənar müdaxilə olmadan mövcudluğunu nə dərəcədə davam etdirə və fəaliyyət göstərə bilər?*

"Şəffaflıq Azərbaycan" təşkilatının vətəndaş cəmiyyəti üzvləri arasında keçirdiyi son sorğu[65] aşkar edib ki, QHT-lər hökumətin vətəndaş cəmiyyətinə müdaxiləsini birmənalı dəyərləndirmir. Respondentlərin təqribən yarısı QHT-lərin hədsiz hökumət müdaxiləsi olmadan fəaliyyət göstərdiyini hesab edib. Respondentlərin dörddə biri müdaxilənin ifrat olduğunu hesab etsə də, digər dörddə biri hökumətin sərt nəzarətinin olmadığı bildirib. Buradan belə qənaətə gəlmək olar ki, QHT-lərin bu məsələ ilə bağlı bir mənalı yanaşması mövcud deyil. Bundan başqa, vəziyyət paytaxt Bakı şəhərində və QHT-lərin sərbəst fəaliyyəti üçün daha az azadlığın olduğu bölgələrdə fərqlədir[66].

Qeydiyyata alınması ilə bağlı problem yaşayan, İnsan Hüquqları Klubunun məlumatına görə, bu gün Azərbaycanda 1000-ə yaxın fəal QHT qeydiyyatsızdır[67].

Hökumətin QHT-lərin fəaliyyətinə təsiri ilə bağlı iddialar mövcuddur.[68] Digər tərəfdən, Azərbaycan hökuməti neytral hesab etdiyi mötəbər QHT-lərlə müxtəlif mexanizmlər vasitəsilə əməkdaşlıq edir. Bunlara Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi[69] , Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platforması[70] , eləcə də dövlət orqanları (məsələn, Vergilər, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri) nəzdində yaradılmış ictimai nəzarət şuralarını misal göstərmək olar. QHT-lərə qarşı ikili yanaşmanın mövcudluğunu beynəlxalq tədqiqatçılar da təsdiqləyir[71].

## Şəffaflıq (təcrübədə): 50

*Vətəndaş cəmiyyəti təşkilatları nə dərəcədə şəffafdır?*

---

[64] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin bu hesabatın müəllifinə müsahibəsi, 28 noyabr 2013.
[65] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[66] "Şəffaflıq Azərbaycan" təşkilatının Bakıdakı mərkəzi ofisində və dörd regional mərkəzində (Gəncə, Quba, Şəki, Lənkəran) təcrübəsi.
[67] İnsan Hüquqları Klubu Azərbaycandakı insan haqlarının vəziyyətindən narahatdır, Amerikanın Səsi, 2 aprel 2014, http://www.amerikaninsesi.org/content/beyanat/1807159.html
[68] Pressure On Nongovernmental Organizations, February 2013, http://www.hrw.org/he/node/118308/section/8#_ftn201
[69] Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi, www.anticornet.az
[70] Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platforması , www.transparency.az
[71] Ritvo, R. A. (2011). Oil Can Make A Difference: Collaborating With NGOs In Azerbaijan. International Journal Of Management & Information Systems (IJMIS) , 2011 Volume 15, Number 1 © 2011 http://journals.cluteonline.com/index.php/IJMIS/article/view/1591

Təəssüflər olsun ki, QHT-lərin özlərinin şəffaflıq səviyyəsi nümunəvi deyil və bu sahədə şəffaflığın artırılmasına ehtiyac duyulur. Fəal QHT-lərin ancaq yarısı qanunvericiliyin tələbinə[72] [73] uyğun olaraq illik maliyyə hesabatlarını təqdim edir[74]. Maliyyə auditindən keçən təşkilatlar öz audit hesabatlarını ya İnternet saytlarında yerləşdirir, ya da dərc edərək yayırlar[75]. Beləliklə, vətəndaş cəmiyyəti təşkilatlarının yarısından az bir hissəsi öz gəlirləri və xərcləri barəsində məlumatları ictimaiyyətlə bölüşür[76]. Lakin QHT-lərin əksəriyyəti öz fəaliyyətlərinə dair illik hesabatlar dərc edir, onları İnternet saytları, yerli qəzetlər, sosial şəbəkələr və elektron məktublar vasitəsilə ictimaiyyətin nəzərinə çatdırır[77]. 17 Dekabr 2013-cü il dəyişikliklərin çərçivəsində QHT haqqında Qanununa müəyyən edilmişdir ki, qeyri-hökumət təşkilatları öz fəaliyyətlərinin şəffaflığını təmin etməlidirlər.

QHT-lərə Dövlət Dəstəyi Şurası öz qrant müsabiqələri vasitəsilə vətəndaş cəmiyyətinin şəffaflığının artırılmasına çalışır. Onların qrant müsabiqələrinin qaydaları şəffaf qaydalardan hesab olunur. [78]

## Hesabatlılıq (təcrübədə): 50

*Vətəndaş cəmiyyəti təşkilatları öz üzvləri və digər maraqlı tərəflər qarşısında nə dərəcədə hesabatlıdırlar?*

Azərbaycanda vətəndaş cəmiyyəti geniş dairələri təmsil etmir, ictimaiyyət və QHT-lər arasında bağlar zəifdir[79]. QHT-lər cəmiyyətin əksər kəsimləri ilə işləmir, ictimai iştirak (QHT-lərin üzvlərinin sayı) bütün əhalinin 1%-dən azdır[80]. Bundan başqa, fəal QHT-lərin əksəriyyəti paytaxt Bakıda yerləşir və nəticədə, Azərbaycanın digər şəhər və rayonları vətəndaş cəmiyyətinin fəaliyyəti ilə zəif əhatə olunub[81], [82].

Sosial xidmətlərin göstərilməsi istiqamətində QHT-lərin tenderlərdə iştirak etməsinə açıq şəkildə yol açan Sosial xidmətlər haqqında qanunun[83] qəbulundan sonra hökumət, əsasən də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səhiyyə Nazirliyi vətəndaş cəmiyyəti təşkilatlarına sosial xidmətlər göstərmək üçün qrantlar və tenderlər verməyə başlayıb. Güman ki, bu təcrübə uzun vədədə QHT-ləri adi vətəndaşa daha çox yaxınlaşdıracaq və onları daha hesabatlı edəcək.

QHT-lər dövlət qarşısında vergi və maliyyə intizamı məslələrində hesabatlıdır və müxtəlif dövlət orqanlarına digər hüquqi şəxslər kimi ətraflı hesabatlar təqdim edirlər.

## Dürüstlük (təcrübədə): 50

---

[72] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə 25.5.4., 13 iyun 2000, www.cssn.gov.az
[73] Qeyri-Hökumət Təşkilatinin Illik Maliyyə Hesabatinin Formasi, Məzmunu Və Təqdim Edilməsi Qaydasinin Təsdiq Edilməsi Haqqinda Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin Qərari, 25 Dekabr 2009, Http://Www.Cabmin.Gov.Az/?/Az/Pressreliz/View/236/
[74] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[75] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[76] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[77] Emin Amrullayev, Report on the Assessment of the Organizational and Management Capacity of NGOs in Azerbaijan, Democracy Learning Public Association, February 2012, http://dlpu.az/senedler/Azerbaijan.pdf
[78] NGO Law Monitor: Azerbaijan, 7 February 2014, http://www.icnl.org/research/monitor/azerbaijan.html
[79] Katrin Böttger, Mariella Falkenhain, The EU's policy towards Azerbaijan: what role for civil society?, SPES Policy Papers, June 2011, http://www.easternpartnership.org/publication/politics/2011-07-25/eu-s-policy-towards-azerbaijan-and-role-civil-society
[80] Emin Amrullayev, Report on the Assessment of the Organizational and Management Capacity of NGOs in Azerbaijan, Democracy Learning Public Association, February 2012, http://dlpu.az/senedler/Azerbaijan.pdf
[81] Civil Society Briefs: Azerbaijan, publication by Asian Development Bank, December 2011, www.adb.org
[82] İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğlunun hesabatın müəllifi ilə müsahibəsi, 15 aprel 2014.
[83] Sosial xidmətlər haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə 26, 29 mart 2012, www.mlspp.gov.az

*Vətəndaş cəmiyyəti təşkilatlarının dürüstlüyü təcrübədə nə dərəcədə təmin olunub?*

Geniş ictimaiyyət QHT-lərin dürüstlüyü haqqında yüksək fikirdə deyil[84]. İctimai rəy QHT-lərin dürüstlüyünü orta səviyyədə (5 ballıq cədvəldə 2.5 balla) dəyərləndirir. Ümumilikdə isə geniş ictimaiyyət yeddi il öncəki vəziyyətlə müqayisədə vətəndaş cəmiyyəti anlayışı ilə indi daha yaxından tanışdır[85].

QHT-lər düzgün daxili hesabatlılıq qaydalarına heç də həmişə sahib deyillər. Məsələn, son sorğulardan birinə əsasən[86] hər üç QHT-dən yalnız biri işçi heyətinin müntəzəm görüşlərini keçirir.

QHT-lərin əksəriyyətinin (95%) rəsmi idarə heyəti və ya qəyyumlar şurası olsa da, strateji qərarların qəbulu məqsədilə keçirilən görüşlər qərarların kollektiv qəbulu prosesindən daha çox, sırf formallıq xarakteri daşıyır[87].

Təşkilatın sistematik özünənəzarət mexanizmləri Azərbaycan vətəndaş cəmiyyətində güclü inkişaf etməyib[88]. QHT-lər əksəriyyətində etik kodeks və ya davranış qaydalarını tənzimləyən sənəd mövcud deyil, qanunvericilik də dövlət qulluqçularından fərqli olaraq QHT-lər üçün belə bir sənədin mövcudluğunu ehtiva etmir. Lakin bəzi aparıcı QHT-lər özünütənzimləmə mexanizmləri yaratmağa cəhd göstərirlər. Məsələn, Azərbaycanın aparıcı QHT-lərinin birinin[89] təklif etdiyi və QHT-lərə Dövlət Dəstəyi Şurasının da dəstəklədiyi Məsuliyyət Xartiyası buna nümunə ola bilər[90].

Bütövlükdə, ölkədə nəzarət və tarazlıq sistemi, o cümlədən vətəndaş cəmiyyəti daha çox inkişafa ehtiyac duyur[91].

## Hökuməti hesabatlı tutmaq: 25

*Vətəndaş cəmiyyəti hökumətin öz hərəkətlərinə görə hesabatlılığına nail olmaqda nə dərəcədə fəal və uğurludur?*

Vətəndaş cəmiyyətinin hökuməti hesabatlı saxlamaq imkanları aşağıdır.[92] QHT-lər belə hesab edir ki, onların ictimai siyasət, xüsusən də yaxşı idarəçilik və korrupsiyaya qarşı mübarizə sahəsində təsirləri məhdud, lakin hissolunandır. Eyni zamanda QHT-lər dövlət orqanlarının fəaliyyətinin monitorinqində fəaldırlar, lakin göstərdikləri təsir barəsində əmin deyillər. Vətəndaş cəmiyyətinin ən az uğur qazandığı sahə dövlət büdcəsinin müzakirələri istiqamətindədir[93],[94]. Lakin son zamanlar QHT-lərin ictimai vəkillik fəaliyyəti korrupiyaya qarşı mübarizə[95] və dövlət büdcəsinin müzakirəsi istiqamətdə kiçik, lakin hissolunan uğurlar əldə etməyə imkan vermişdir.[96]. Bununla yanaşı vətəndaş cəmiyyəti qərarların

---

[84] CSO Sustainability Index 2012: Azerbaijan http://www.usaid.gov/sites/default/files/documents/1863/AZE.pdf
[85] "Konstitusiya" Araşdırmalar Fondundan Əliməmməd Nuriyevlə bu hesabatın müəllifinin müsahibəsi, 28 noyabr 2013.
[86] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[87] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[88] Christine Leiser, "Mapping of Civil Society organization in Azerbaijan," The European Union's EIDHR Programme, October 2010, www.oneglobalexpert.com
[89] Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu, www.edf.az
[90] "QHT-lər Məsuliyyət Xartiyasını bəyəndilər", QHT-lərə Dövlət Dəstəyi Şurasının saytı, http://cssn.gov.az/xeberler/20110217182651452.html
[91] Central Asia-Caucasus Analyst, 2 March 2011, http://www.silkroadstudies.org/new/docs/publications/110302analyst.pdf
[92] İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğlunun hesabatın müəllifinə müsahibəsi, 15 aprel 2014.
[93] Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizəyə cəlb edilməsi, "Şəffaflıq Azərbaycan" təşkilatının nəşri, iyul 2013, http://transparency.az/alac/files/bookaz.pdf
[94] İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğlunun hesabatın müəllifinə müsahibəsi, 15 aprel 2014.
[95] "Konstitusiya" Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin hesabatın müəllifinə müsahibəsi, 28 noyabr 2013.
[96] İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğlunun hesabatın müəllifinə müsahibəsi, 17 sentyabr 2013.

qəbulu prosesində vətəndaş cəmiyyətinin və geniş ictimaiyyətin iştirakını təmin edilməsini tövsiyyə edir[97].

Bu səbəbdən QHT-lər arasında şəbəkələşmə inkişaf etməkdədir, çünki QHT-lər öz güclərinin birlikdə olduğunu anlayırlar. Son 10 il ərzində Azərbaycanda şəhər və kənd yerlərində fəaliyyət göstərən müxtəlif QHT-lərin iştirakı ilə 17 fərqli koalisiya təsis edilib[98]. Bu koalisiyalara Azərbaycan Milli QHT Forumu[99], Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası[100], Gənclər Təşkilatları Milli Şurası[101], Vətəndaş Nəzarəti Şəbəkəsi[102], Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu[103], Korrupsiyaya qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi[104], Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platforması[105] və digərlərini nümunə göstərmək olar.

## Korrupsiyaya qarşı islahatlar: 50

*Korrupsiyaya qarşı islahat təşəbbüslərində vətəndaş cəmiyyəti nə dərəcədə fəal iştirak edir?*

QHT-lərin korrupsiyaya qarşı islahatlar siyasətində oynadıqları rolu birmənalı dəyərləndirmək mümkün deyil.
Vətəndaş cəmiyyəti təşkilatlarının siyasi gündəliyə təsir imkanları məhduddur, lakin onların təsiri müxalifət partiyalarının təsirindən daha böyükdür[106]. Beynəlxalq təşkilatların vətəndaş cəmiyyəti institutlarının Korrupsiyaya Qarşı Mübarizə Komissiyasında[107] təmsil olunması ilə bağlı tövsiyyələri yerinə yetirilməmiş qalıb. QHT-lərin bu Komissiyada təmsil olunması, rəsmi proseslərə onların baxışlarının gətirilə bilməsinə kömək etmiş olar. Hazırda Vətəndaş cəmiyyəti nümayəndələri Komissiyanın yalnız Qanunvericiliyin təkmilləşdirilməsi üzrə işçi qrupunda təmsil olunur.

Buna baxmayaraq, QHT-lər həm Korrupsiyaya qarşı mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi[108], həm də Şəffaflıq Azərbaycan təşkilatının təşəbbüsü ilə təsis edilmiş Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platforması[109] vasitəsilə Komissiyaya öz görüşlərini çatdıra bilirlər. Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi ilə Azərbaycan Respublikası Baş Prokurounun yanında Korrupsiyaya Qarşı Mübraizə Baş İdarəsi arasında 27 yanvar 2012-ci ildə Korrupsiyaya Qarşı Mübarizə Sahəsində Əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Vətəndaş cəmiyyəti 2007-2011-ci illəri əhatə edən korrupsiyaya qarşı mübarizə üzrə əvvəlki strategiyanın icrası ilə bağlı ictimai dinləmələr və dəyirmi masalar vasitəsilə ictimai müzakirələr təşkil edib. 2008-ci ildə bir neçə QHT, Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın icrasının alternativ monitorinqini aparıb. Monitorinq zamanı QHT-lər Komissiya ilə əməkdaşlıq etmiş, Komissiyanın üzvləri isə monitorinq nəticələrinin təqdimatında iştirak edib.

---

97 "Azərbaycanda vətəndaş çəmiyyəti: dəyişikliklər üçün Milli Gündəlik" mövzusunda 1-ci Vətəndaş Cəmiyyəti Forumu, www.eap-csf.eu/en/national-platforms/azerbaijan/
98 Civil Society Briefs: Azerbaijan, publication by Asian Development Bank, December 2011, www.adb.org
99 Azərbaycan Milli QHT Forumu, www.azngoforum.org
100 Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası , www.eiti-ngo-azerbaijan.org
101 Gənclər Təşkilatları Milli Şurası, www.nayora.az
102 Vətəndaş Nəzarəti Şəbəkəsi, www.crn.az
103 Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu, www.civilsocietyforum.az
104 Korrupsiyaya qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi, www.anticornet.az
105 Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platforması, www.transparency.az
106 İqtisadi Tədqiqatlar Mərkəzindən Qubad İbadoğlunun ilə hesabatın müəllifinə müsahibəsi, 17 sentyabr 2013.
107 www.anti-corruption.gov.az
108 Korrupsiyaya qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi, www.anticornet.az
109 Şəffaflıq Azərbaycan təşkilatının təşəbbüsü ilə Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platformasının təsisi, 7 iyul 2013, www.transparency.az

Monitorinqin nəticələri, eləcə də QHT-lərin müvafiq tövsiyələri Komissiyaya təqdim edib. Komissiya da Milli Strategiyanın illik dəyərləndirilməsində bu nəticələrdən istifadə edib.[110]

Korrupsiyaya qarşı mübarizəyə və Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı Azərbaycanda korrupsiyaya qarşı mübarizə siyasətinin əhəmiyyətli təzahürlərindədir və bu planlar hazırlanarkən vətəndaş cəmiyyətinin də rəyləri nəzərə alınıb.[111] Bu Fəaliyyət planlarına uyğun olaraq Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən illik milli hesabat hazırlanması nəzərdə tutulur və onun hazırlanmasında vətəndaş cəmiyyəti institutları tərəfindən təqdim edilən məlumatlardan istifadə edilməlidir. Hər iki, Fəaliyyət Planı hər il üçün "Şəffaflıq Azərbaycan" təşkilatı və onun tərəfdaşları olan "Konstitusiya" Araşdırmalar Fondu və İqtisadi Tədqiqatlar Mərkəzinin təsis etdiyi Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Platforması tərəfindən monitorinq ediləcək. Hər iki fəaliyyət planının monitorinqinin nəticələrindən ibarət ilk hesabat 2013-cü ilin noyabrında hökumətə təqdim edilib. Vətəndaş cəmiyyətinin hesablamalarına görə 2013-cü ilin sentyabrı üçün Korrupsiyaya qarşı mübarizəyə dair fəaliyyət planı 34%[112], Açıq Hökumətin təşviqinə dair fəaliyyət planı isə 25% yerinə yetirilib[113].

Bəzi hallarda, xüsusən də sosial məsələlərlə bağlı QHT-lər ekspert rəyi vermək üçün dəvət olunurlar. Dövlət proqramlarının, xüsusən də beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirilən proqramların icrasında yardım ala biləcəkləri məqamları öyrənmək məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, həm də Səhiyyə Nazirliyi diqqətlə seçilmiş müəyyən QHT-lərlə görüşlər keçirdikləri platformalar yaradıb. Bu iki dövlət orqanı sosial xidmətlərin göstərilməsi məqsədilə QHT-lərə tenderlər də ayırır.

Nəticədə onu vurğulamaq olar ki, Azərbaycanın vətəndaş cəmiyyəti tam yetkinləşməyib, hələ fəaliyyət qabiliyyəti, potensialının artırılması və konsolidasiya kimi ağrılı proseslərdən keçir. Vətəndaş cəmiyyəti həm də öz siyasi təmayülü və hökumətlə əməkdaşlıq dərəcəsinə görə qütbləşib.

**Hökumət üçün tövsiyələr:**

- Qanunvericiliyə aydın dəyişikliklər edərək qeyri-kommersiya məqsədi ilə gəlir əldə edən hüquqi şəxs statusu təsis etmək, onların öz əməliyyat və fəaliyyətlərini maliyyələşdirməsi üçün əldə etdiyi gəlirlərə vergi güzəştləri tətbiq etmək;
- QHT-lərin vergi yükünü azaltmaq, əmək haqlarına görə 22% həcmində məcburi dövlət sosial sığorta haqqını ləğv etmək, eləcə də ƏDV-dən azad olma haqqında hesabat verilməsini aradan qaldırmaq;
- Vətəndaş cəmiyyəti ilə məsləhətləşmələr əsasında QHT-lərin qeydiyyatı prosesini sadələşdirmək;
- Dövlət tərəfindən QHT-lərin fəaliyyətinə nəzarət ilə bağlı prosedura və qaydalarını aydın şəkildə formalaşdırmaq müxtəlif orqanların prosedurları arasında olan uyğunsuzluqları aradan qaldırmaq; Ədliyyə Nazirliyinin onlayn reyestrinə qrantın daxil olmasını həmin qrantın dövlət tərəfindən qeydiyyatı alınması kimi qanunvericilikdə açıq şəkildə təsbit etmək;
- Vətəndaş cəmiyyəti üçün kadrların hazırlanması məqsədilə universitet səviyyəsində peşəkar təhsilin yaradılması prosesini sürətləndirmək;
- Sosial xidmətlər sahəsinə tender əsasında QHT-lərin cəlb edilməsini və maliyyə davamlılığını təmin edəcək proqramları genişləndirmək;
- Bütün dövlət orqanları nəzdində ictimai nəzarət şuraları təsis etmək və bu təcrübəni yerli icra hakimiyyətlərinə də tətbiq etmək:
- Özəl sektorla VCT-ər arasında dialoqu və əməkdaşlığı dəstəkləmək.

**Xarici donorlar üçün tövsiyələr:**

- Vətəndaş cəmiyyətinin institusional potensialının və fəaliyyət qabiliyyətinin artırılmasına yönələn, xüsusən də hesabatlılıq və maliyyə mənbələrinin tapılması (fandreyzinq) sahəsində proqramları davam etdirmək;

---

[110] OECD Anti-Corruption Network for Eastern Europe and Central Asia, 31 March 2010, http://www.oecd.org/countries/azerbaijan/44996103.pdf
[111] Konstitusiya Araşdırmalar Fondundan Əliməmməd Nuriyevin hesabatın müəllifinə müsahibəsi, 11 aprel 2014.
[112] "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın monitorinq hesabatı, "Konstitusiya" Araşdırmalar Fondu "Şəffaflıq Azərbaycan" üçün, noyabr 2013, www.transparency.az
[113] "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın monitorinq hesabatı, İqtisadi Tədqiqatlar Mərkəzi "Şəffaflıq Azərbaycan" üçün, noyabr 2013, www.transparency.az

- Fəaliyyətləri dəstəkləməklə yanaşı, dövlətin irəli sürdüyü sərt hesabatlılıq tələblərini qarşılamaq üçün QHT-lərin inzibati məsələlərlə məşğul olacaq əməkdaş işə götürməsi üçün maliyyə ayırmaq;

**Vətəndaş cəmiyyəti üçün tövsiyələr:**

- Bölgələrdəki QHT-lərin və təşəbbüs qruplarının fəaliyyət qabiliyyətini artırmaq məqsədilə Bakıda yerləşən QHT-lər tərəfindən bölgələrdəki yerli fəallarla koalisiya qurmaq, onları öz yerli tərəfdaşları kimi qəbul etmək;
- İllik maliyyə auditləri aparmaq və bu məlumatları ictimaiyyətlə bölüşməklə QHT-lərin şəffaflığının artırılmasına nail olmaq;
- Sistemli özünənəzarət təcrübəsi tətbiq etmək, davranış kodeksi qəbul etmək;
- Ümumi maraqlar naminə şəbəkələşməni genişləndirmək;
- QHT-lər ilə özəl sektor arasında əməkdaşlıq səylərin təkmilləşdirilməsi istiqamətində fəal çalışmaq.